# Azərbaycanı özü qədər sevən lìder

Ulu öndər Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi hakimiyyətə irəli çəkilməsi xalqı milli müstəqilliyə doğru aparan nurlu yolun başlanğıcına çevirmişdir. 35 ilə yaxın müddətdə ulu öndər daim xalqının milli maraq və mənafeləri uğrunda əzmkar mübarizə aparmış, uzaq hədəflərə hesablanmış siyasət yeridərək insanlarda müstəqil dövlətçilik şüurunun formalaşmasına çalışmışdır. Həmin illərdə ümummilli liderin fədakar fəaliyyəti nəticəsində xalqda tədricən azərbaycançılıq məfkurəsi formalaşmağa başlamış, milli ruh hədsiz dərəcədə yüksəlmişdir.

Xalqına, onun keçmişinə, tarixinə, adət-ənənələrinə, milli dəyərlərinə daxilən bağlı bir şəxsiyyətin respublikaya rəhbərliyə başlaması o ağır imperiya dövründə Azərbaycanda bütün sahələr üzrə yüksəlişə ciddi zəmin yaratmışdır. Ulu öndər heç nədən çəkinməyərək əzmkar fəaliyyəti ilə xalqda tarixi keçmişi, milli kimliyi, dili, mədəniyyəti, adət-ənələri barədə dolğun təsəvvürlər formalaşdıra bilmişdir.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969—1982-ci illərdə min cür maneələri dəf edərək Azərbaycanın hərtərəfli inkişafını təmin edən xüsusi qərarlar qəbul edilməsinə nail oldu. Qətiyyətlə də həmin qərarların yerinə yetirilməsini təmin etdi. Xalqın qurub yaratmaq əzmi tamamilə və bütünlüklə Azərbaycanın ümumi yüksəlişi üçün səfərbər olundu. Nəticədə 1970-1985-ci illər Azərbaycanın tarixinə parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. İstehsalla bilavasitə bağlı olan elmi tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar sayəsində Azərbaycan aqrar-sənaye respublikasına cevrildi. Azərbaycanda bir neçə il ərzində yeni yaşayış massivləri, binalar, məktəblər, sənaye müəssisələri tikildi, yollar salındı, Həmin 14 illik fəaliyyəti ərzində respublikada həyatın elə bir sahəsi qalmadı ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın. Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, səhiyyə sahələri inkişaf edərək Azərbaycanın keçmiş müttəfiq respublikalar sırasında ön yerlərdən biirini tutmasına gətirib çıxardı. Heydər Əliyev bu fəaliyyəti ilə tək həmin dövrün Azərbaycanı və vətəndaşları üçün yox, həm də gələcək müstəqil Azərbaycanın möhkəm təməlini, sonrakı nəsillərin xoşbəxt və firavan həyatının əsasını qoymuşdur.

Bütün görülən işlər ümummilli liderin gələcəyə hesablanmış addımları idi. Ulu öndər uzaqgörənliklə hiss edirdi ki, Azərbaycan müstəqilliyini bərpa edəcək, onun yaratdığı istər maddi, istərsə də mənəvi dəyərlər müstəqil Azərbaycana gərəkli olacaqdır.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində gedən prosesdə Heydər Əliyev tarixi şəxsiyyət, lider olaraq Azərbaycan xalqının taleyinə təsir göstərən əhəmiyyətli addımlar atdı. 20 Yanvar hadisələri ilə əlaqədar Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməsi və orada bu faciəni törədənləri kəskin ittiham etməsi tarixi prosesə, tarixi hadisələrə ciddi təsir göstərən addım idi. Məhz bundan sonra Azərbaycanda xalq hərəkatı milli azadlıq hərəkatına çevrildi. 1990-cı ilin yanvarından sonra gedən mübarizə artıq müstəqillik, azadlıq, suverenlik, istiqlal uğrunda gedən mübarizə idi. Bu mübarizə 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə yekunlaşdı.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə ölkəmizdə siyasi böhran yaşandığı, vətəndaş müharibəsi təhlükəsi yarandığı, Ermənistanın təcavüzünün gücləndiyi bir vaxtda siyasi hakimiyyətə qayıdıb, ilk növbədə vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Cəbhədə atəşkəsə nail oldu. Qanunçuluq və möhkəm dövlət initizamının yaradılmasını təşkil etdi. Ölkədə xaos və özbaşınalığın qarşısı alındı.

Bu böyük şəxsiyyətin ən böyük xidmətlərindən biri də Azərbaycanın öz təbii sərvətlərinə sahib çıxması, Azərbaycan neftinin və qazının xarici ölkələrə ixracısına nail olunnmasıdır. Neft strategiyası bu ğun Azərbaycan üçün həm siyasi, həm də iqtisadi dividentlər gətirməkdədir.

Azərbaycan aqrar ölkədir. Ulu öndər Heydər Əliyev hələ Azərbaycana rəhbərlliyinin birinci dövründə 70—80-ci illərdə aqrar sektorun daha da inkişafına, kənd təsərrüfatı işçilərinin əməyinin qiymətləndirilməsinə xüsusi diqqət göstərirdi. O dövrdə respublika rəhbərliyinin uzaqgörən siyasəti və böyük səyi nəticəsində ölkəmizdə aqrar-sənaye kompleksi sürətlə inkişaf etmişdir.

90-cı illərin əvvəllərində ölkəni bürümüş dərin tənəzzül iqtisadiyyatın digər sahələri kimi kənd təsərrüfatını da əhatə etmişdir. Aqrar-sənaye kompleksi tamamilə dağılmış və böyük inkişaf potensialı olan kənd təsərrüfatı ölkə iqtisadiyyatının zərərlə işləyən sektoruna çevrilmişdir. Yalnız ulu öndər Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə qayıdışından sonra bu sahədə əsaslı dönüş yarandı. 90-cı illərin ortalarında kənd təsərrüfatında köklü dəyişiklikləri nəzərdə tutan torpaq islahatları həyata keçirildi. Bu tədbirlər kənddə yeni iqtisadi münasibətlərin formalaşmasına, kəndlinin əməyə olan marağının artmasına şərait yaratdı.

Bir sözlə, böyük şəxsiyyət Heydər Əliyev uzun illər aqrar sektorda, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, idman sahələrində və digər abadlıq-quruculuq işlərində həyata keçirilən tədbirləri canı qədər sevdiyi Azərbaycan üçün edibdir. O, müdrik uzaqgörənliklə hər bir Azərbaycan vətəndaşının xoş yaşayışı, yüksək sosial rifahı, maddi və mənəvi cəhətdən zəngin olması üçün durmadan calışıbdır.

İllər keçir, amma xalqımız ümummilli liderin fiziki yoxluğunu ürək ağrısı və yanğısı ilə yaşayır. Çünki o, Azərbaycanın itkisidir. Amma bu cismani yoxluqdur. O, ölməzdir, bizimlədir, nə qədər ki, Azərbaycan adlı bir məmləkət var, ulu öndər də var olacaq və hər zaman insanlara doğru yol göstərəcək. Unutmayaq ki, xalqın yaddaşında qalmaq hər kəsə qismət olmur. Xalq sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman doğulub böyüdüyü torpağı, xalqı, milləti üçün müqəddəslər müqəddəsi olaraq qalacaq. Bu sevgi onun halal haqqıdır!

Heydər Əliyev böyük şəxsiyyət olaraq həmçinin bu dövləti yeni əsrdə inamla irəli aparacaq, əzmlə inkişaf etdirəcək, alternativsiz siyasi kursunun davamlılığını bütün sahələrdə təmin edəcək lider yetişdirmişdir. Son 10 ildə ulu öndərin siyasətini uğurla davam etdirən dövlət başçısı İlham Əliyev xalqın layiqli rəhbəri və lideri olduğunu əməli işi ilə sübuta yetirmiş, hər bir azərbaycanlının Prezidenti olmuşdur.

Müdrik və uzaqgörən Azərbaycan xalqının 2013-cü il 9 oktyabr tarixli seçimi də məhz bu reallıqla şərtlənmiş, ölkə vətəndaşları son 10 ildə hər vədini əməli işi ilə doğruldan, ölkə həyatının ən müxtəlif sahələrində inkişaf və tərəqqiyə zəmin formalaşdıran, insan və şəxsiyyət amilini uca tutan layiqli siyasi liderə səs vermişlər. Xalqına və dövlətinə qəlbən bağlı olan cənab İlham Əliyevin üçüncü müddət Azərbaycan Prezidenti seçilməsi dünyanın tərəqqipərvər qüvvələri tərəfindən, həm Azərbaycanda, həm də regiondakı ictimai-siyasi proseslərin məntiqindən doğan labüd hadisə kimi qarşılanmışdır.

**Aslan CƏLİLOV.**

# Doğma ölkəmizdə

## Neft məhsullarının satışı artıb

Cari ilin yanvar-oktyabr aylarında Azərbaycandan 5.600,5 min ton neft məhsulları (ixrac da daxil olmaqla) satılıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,3 faiz çoxdur.

İstehlakçılara göndərilən məhsulların 34,2 faizini dizel yanacağı, 20,8 faizini avtomobil benzini, 10,1 faizini aviasiya üçün ağ neft, 4,7 faizini neft bitumu, 3,9 faizini maye qaz, 3,5 faizini mazut yanacağı, 0,8 faizini sürtkü yağları, 22 faizini isə digər məhsullar təşkil edib.

Neft məhsullarının 77,4 faizi daxili bazara, 22,6 faizi isə xaricə ixrac edilib.

## Gəncə 2016-cı ildə Avropanın Gənclər paytaxtı seçilmişdir

Avropa Gənclər Forumunun, Avropa Şurasının, Avropa İttifaqının, bir sıra beynəlxalq qurumların, Rumıniya Milli Şurasının və Kluj Napoka bələdiyyəsinin nümayəndələrindən təşkil olunmuş münsiflər tərəfindən verilmiş qərarda 2016-cı ildə Gəncə Avropanın Gənclər paytaxtı seçilmişdir.

Gəncə bu adı qazanmaq üçün namizədliyi qəbul edilmiş 12 şəhər sırasından seçilmiş 5 şəhərlə - Badajoz (İspaniya), Qalvey (İrlandiya), Laquna (İspaniya), Varna (Bolqarıstan), Vilnüs (Litva) final mərhələsində mübarizə aparmışdır.

Bu qələbə Azərbaycanda aparılan gənclər siyasətinin uğurlu nəticəsi hesab edilir. Qələbə həm də Azərbaycan gənclər siyasətinin Avropada artıq brend kimi qəbul olunmağa başladığının nəticəsidir.

Bu barədə məlumatı Milli Məclisin deputatı Ceyhun Osmanlı vermişdir.

## Azərbaycan—Fransa Hökumətlərarası İqtisadi Komissiyanın növbəti iclası

Ötən ayın sonlarında Bakıda Azərbaycan—Fransa Hökumətlərarası İqtisadi Komissiyanın növbəti 7-ci iclası keçirilmişdir.

Hökumətlərarası Komissiya Azərbaycan Prezidentinin 1997-ci ildə imzaladığı müvafiq sərəncamla yaradılmışdır. Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət iki ölkə arasında əlaqələrin daha da genişlənməsinə böyük töhfə verir. İndiyədək iki ölkə arasında müqavilə-hüquq bazasını təşkil edən 42 sənəd imzalanmışdır.

Ümumiyyətlə, Azərbaycan və Fransa arasında əməkdaşlıq bir çox istiqamətləri, o cümlədən ticarət və investisiya, şəhərsalma, enerji, mülki aviasiya və aeronavtika, maliyyə, təhsil, kənd təsərrüfatı, nəqliyyat, idman, ətraf mühit sahələrini əhatə edir.

İclasda Komissiyanın protokolu imzalanmışdır.

**Topladı: Nadir ATAKİŞİYEV.**